Vətəndaş Həmrəyliyi
47 (639) 16-19 iyul 2008-ci il

Naxçıvandan ucalan söz və fikir zirvəsi

Sabir RÜSTƏMXANLI

İllər uzunu sevincini-kədərini bölüşdürdüyün, yaradıcılıq yolunu diqqətlə izlədiyin, hər əsəri barədə dəfələrlə fikir mübadiləsi apardığın yaxın adamlar haqqında yazmaq çətindir. Yəqin ona görə ki, yazdığın həmişə sənə yarımçıq görünür, ürəyindəkilərinin hamısını ifadə etmir.

Filologiya elmləri doktoru, Naxçıvan Dövlət Universitetinin rektoru, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli və bütün Həbibbəylilər ailəsi ilə məni təxminən qırx illik bir dostluq bağlayır.

Aspiranturaya qəbul zamanı başlanan tanışlıq az sonra sirdaşlığa, dərddaşlığa çevrilmişdi. İsa samimiyyəti, çətinliyə, ehtiyaca, təəyiqə əyilməzliyi ilə, ümidlə, işıqla dolu olan həssas və gözəl ürəyi ilə, böyük Türk-Azərbaycan sevgisi ilə, sadə ata ocağına bağlılığı, qeyri-adi iş qabiliyyəti və quruculuq eşqi ilə, bütün gücünü Naxçıvanda təhsilin inkişafına verməsi ilə həmişə yaşıdlarından seçilmiş və ədəbi-ictimai fikrimizin başında dayanan adamlardan birinə çevrilmişdir. Kökünə ədəbiyyatşünaslar nəslinin nümayəndələri Məmmədhüseyn Təhmasibi, Məmməd Cəfəri, Abbas Zamanovu, Əziz Mirəhmədovu ikimiz də çox istəyirdik. İndi görürəm ki, İsanın özü də tədricən gəlib o nəsllə qoşulub və əməli işi ilə onları da üstələyib.

İsa əsl alimdir. Bütün ömrü boyu yorulmadan çalışıb. Dünya arxivlərini gəzməkdən, axtarmaqdan yorulmayıb, ədəbiyyatşünaslığımızı bir çox tapıntılarla zənginləşib, onlarla kitab yazıb və nəşr etdiribE Bunlar öz yerində. Ancaq mən bu günkü Naxçıvan Dövlət Universitetini də çəkinməndən İsa Həbibbəylinin əsəri hesab edirəm. Nə yaxşı ki, bu sonuncu əsərin yaranmasında mərhum Heydər Əliyevdən başlayaraq həm Azərbaycan, həm də Naxçıvan rəhbərliyi İsaya hər cür dəstək verərək Naxçıvan Dövlət Universitetinin artıq beynəlxalq aləmdə tanınan bir təhsil mərkəzinə, elm ocağına çevrilməsinə şərait yaradıblar. Məhz universitet rektorluğu dövründə mən köhnə dostumu sanki yenidən tanıdım və onun yaradıcılıq enerjisinə, quruculuq bacarığına heyran qaldım. İlin hansı vaxtında getsəm o, ilk növbədə, universiteti gəzdirir, yeni işlərini göstərir, şəhərciyin bu başından vurub o biri başına qədər bilməden çalışdı və Naxçıvan universitetini də şəhər içində şəhərə çevirdi, onu dünyanın 30-a yaxın universitetləriylə bağladı. Müştərək elmi konfranslar, müştərək təhsil proqramları, texnologiya və təcrübə mübadilələri Naxçıvan universiteti ilə Amerika, Avropa və Yaxın Şərq ölkələrinin ali təhsil ocaqları arasında körpü saldı. Bakı universitetlərinin həsrət çəkdiyi gözəl bir kitabxana binası tikdirdi, oranı ən çağdaş texnika ilə donatdı, yəni bəzədi və beynəlxalq informasiya - kitabxana şəbəkələrinə qoşdu.

Ona qədər Naxçıvan universitetində 4 fakültə vardı, indi 10-a çatıb. Tibb, incəsənət, memarlıq və mühəndislik kimi yeni fakültələr sayəsində Muxtar Respublika üçün çox önəmli ixtisaslar üzrə mütəxəssislərin hazırlığının birbaşa Naxçıvanın özündə həyata keçirilməsi cavanların da rektorun özü kimi yurda, ocağa bağlanıb qalmasına imkan yaratdı.

Bu anlamda Naxçıvan Dövlət Universitetinin fəaliyyəti təhsillə yanaşı həm də gələcəyə yönələn strateji və vətəndaşlıq işidir. Bu gün burda 44 ixtisas öyrədilir. Bütün bunlar ölkədə təhsilə münasibətin, qayğının ümumi mənzərəsini əks etdirməklə yanaşı, konkret olaraq həm də İsa Həbibbəylinin böyük əməyinin, fədakarlığının nəticəsidir.

Naxçıvan Dövlət Universitetində gedən quruculuğu yaxından izlədiyimə görə inamla deyə bilərəm ki, bu işlərin özü bir alimin, pedaqoqun milllətinə borcunu verdiyinə, əli ürəyində, arxayın yaşamasına bəs edər.

İsa mənim gözümdə həm Naxçıvanın, həm də bütöv Azərbaycanın böyük ziyalılıq məktəbinin parlaq nümayəndələrindən biri, son dərəcə dəyərli elm adamıdır. Onun "Nurlan" nəşriyyatında bu yaxınlarda buraxılmış iri həcmli "Ədəbi-tarixi yaddaş və müasirlik" kitabı dediyimizin yeni bir təsdiqidir. Əslində, bu kitab müəlifin yaradıcılıq hesabatı və ya "Seçilmiş əsərləri" də sayıla bilər. Çünki İsanın 40 illik yaradıcılığının əsas istiqamətlərini, janr və mövzularını əhatə edir. Kitab 1968-ci ildə yazdığı ilk şerlərindən üzü bəri müəllifinin nə qədər coşqun, bəhrəli, yorulmaz bir yaradıcılıq həyatı yaşadığını aydın göstərir və etiraf edim ki, bir məqalədə bu kitabın bütün məziyyətlərindən danışıb, onun əsl dəyərini vermək çox çətindir.

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Əziz Mirəhmədovun kitabın əvvəlində verilmiş məqaləsi, əslində, İsa Həbibbəylinin ədəbi-bədii fikrimizdə, elm və pedaqoqika sahəsində yeri və mövqeyini dəqiq müəyyənləşdirir. Görkəmli alim hələ 18 il öncə gənc dostunun yaşlı ədəbiyyatşünaslar, ziyalılar nəslinin layiqli davamçısı olduğunu, ən başlıcası elm fədakarlığını xüsusi vurğulamışdır. Məncə, fədakarlıq ictimai-siyasi xadim, pedaqoq və vətəndaş kimi İsanı çox dürüst xarakterizə edən sözdür. Folklorşünaslıq, klassik və çağdaş ədəbiyyat, tənqid və ədəbiyyatşünaslıq, ədəbiyyat nəzəriyyəsi məsələləri, elmi-ədəbi əlaqələr, incəsənət problemləri, diyarşünaslıq və mətbuat tarixi, nəhayət müxtəlif illərdə yazılmış poema və şerlər... Kitabın mövzu dairəsi bu qədər geniş və çoxcəhətlidir.

İsa Həbibbəyli Azərbaycanın o ədəbiiyaşünas alimlərindəndir ki, onlar ilkin mənbələrə söykənməndən, araşdırdığı yazıçının bütün irsini diqqətlə öyrənməndən onun haqqında söz demirdilər. Bu mənada o həm də ciddi bir mətnşünas və klassik ədəbiyyatımızın sirlərinə bələd olan və indi sayı xeyli azalmış nadir elm cəfakeşlərindən biridir. Onun dahi Nizami Gəncəvidən Şəhriyara qədər - Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Məhəmməd Tağı Sidqi, Məhəmməd Şahtaxtlı, Hüseyn Cavid, Mir Cəlal və başqa ustadlarımız, eləcə də Dədə Qorqud şəxsiyyəti və boyları, Sara əfsanəsi, Aşıq Ələsgər irsi haqqında yazılarının hamısını birləşdirən ümumi cəhət də məhz bundan ibarətdir. Yəni onun üçün elmi dəqiqlik və tədqiqat obyektinə dərindən bələdlik, araşdırdığı mövzu ilə bağlı mövcud olan nəticələri əsaslanmaq həmişə vacib şərt olmuşdur. O yalnız əldə olan məlumatlar və kitablar əsasında danışmır, hətta ən çox öyrənilmiş sayılan sahələrdə də araşdırmadan kənarda qalmış qatları qaldırır, gözdən yayınmış və ya diqqət yetirilməmiş yeni materiallar üzə çıxarır. Ədəbiyyatın hər sahəsinin yenidən işıqlandırılması zərurətini ortaya qoyur. Məsələn, Aşıq Ələsgər haqqında ümumi təhlil aparmaqdansa, onun xalq arasında yaşayan, kitablara düşməmiş şerlərini axtarmağa üstünlük verir və buna nail olur. Haqqında onlarla doktorluq və namizdəlik işi, kitablar yazılmış Mirzə Cəlilin indiyədək məlum olmayan yeni əsərlərini tapır, qohumlarının izinə düşüb onlarla görüşür, nadir fotoşəkillərini toplayaraq, böyük ədib haqqında çox dəyərli albom çap etdirir. Yaxud XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi fikir dünyasının ən böyük simalarından biri olan Məmmədağa Şahtaxtlı yaradıcılığını araşdırarkən ilk növbədə onun ədəbi irsinin oxuculara çatdırılmasının qayğısına qalır, yazılarını kitab halında üzə çıxarır, on illərlə haqqında yazılmış ümumi sözlərlə danışır, fədakar millət atalarının bəya boy atmasına, nəsillərə müəllim olmasına çalışır, araşdırıcıların nəşrlik işini yanaşı görür.

Bütün bunlardan ötrü İsa bəy Azərbaycanın izlərini saxlayan dünya arxivlərini ələk-vələk edir, hər yeni tapıntısına uşaq kimi sevinir və bunu dövrü mətbuat səhifələrində oxucularıyla bölüşür.

İsa Həbibbəylinin folklor nümunələrinə və klassiklərə münasibəti də maraqlıdır; araşdırma hədəflərinin hər biri ədəbi-mədəni tariximizin ən böyük, ən dəyərli, məktəbə çevrilmiş, yeni dönəmin başlanıcı olmuş nümunələri və nümayəndələridir. Bu seçimin özü İsa bəyin zövqünü, ədəbiyyatı dəyərləndirmə meyarlarını, söz sənətindən umduğu mənəvi, estetikdən gözlədiyi yüksəkliyi aydın göstərir. Hər bir qiymətləndirmə və incələmə sistemində ən mühüm amil, heç şübhəsiz, vətəndaşlıq, vətənə və millətə xidmət məsələsidir. Millətə xidmət çərçivəsində kənarda ədəbiyyat yoxdur, olsa da böyük ədəbiyyat sayılmaz və uzunömürlü olmaz. İsanın gəldiyi qənaət budur.

Çağdaş ədəbiyyatımızdan səslərə cəlb etdiyi müəlliflərin sayı da təsadüfi seçiyyə daşımır və müəllifin ədəbi prinsiplərinin güzgüsüdür: Məmməd Arazın, Anarın, Elçinin, Əkrəm Əylislinin, Naxçıvanda yaşayıb-yaratmış xalq yazıçısı Hüseyn İbrahimovun, Yusif və Vaqif Səmədoğluların, Zəlimxan Yaqubun və nəhayət bu sətirlərin müəllifin yaradıcılığını təhlil edərkən müəllif yenə böyük ədəbi ənənələrimizdən qopmur, yüz illər boyu Azərbaycan söz sənəti üçün səciyyəvi olan bədii-estetik ölçüləri, humanizmi, milli ruhu, ümumxalq ideallarına bağlılığı Azərbaycan cəmiyyətinin tələblərini əsas götürür.

MİLLƏTƏ XİDMƏT ÇƏRÇİVƏSİNDƏN KƏNARDA ƏDƏBİYYAT YOXDUR, OLSA DA BÖYÜK ƏDƏBİYYAT SAYILMAZ VƏ UZUNÖMÜRLÜ OLMAZ

Bu yazıları fərqləndirən cəhətlərdən biri də müəllifin şəxsiyyəti ilə yaradıcılığını bütöv görmək bacarığıdır; yəni hər yazıda bir müəllifin portreti cızılır; ədəbi əsərləri vasitəsilə onun şəxsiyyətinə işıq tutulur, onun ədəbi-ictimai mühitdəki yeri bəlirlənir...

Milli ədəbiyyat və mədəniyyətin, Azərbaycan ziyalılarının milllətin taleyində oynadığı rol, sənət və cəmiyyət, sənət və zaman problemləri, sənətin milli təfəkkürə və müstəqillik mübarizəsinə təsiri, söz sənətini yüksək əxlaqi, mənəvi, fəlsəfi dəyərə çevirən bədiiyyat şərtləri və poetikə özəllikləri - İsanı yaradıcılığı boyu, demək olar ki, hər yazısında düşündürən məsələlərdir.

Tənqid və ədəbiyyatşünaslıq məsələlərinə həsr edilmiş, bu sahənin ayrı-ayrı simalarının yaradıcılığı timsalında həmin sahənin ən ciddi problemlərini qaldıran yazılarında da İsa bəy öz ədəbi-estetik yanaşma tərzinə sadiqdir.

Öz qocaman dostlarını dəyərləndirdikcə o əslində, həm də öz ədəbi portretini çəkir. Məsələn, onun akademik Məmməd Cəfər haqqında "Yaradıcılıqla şəxsiyyətin vəhdəti" adlı məqaləsində aşağıdakı sətirləri tərəddüd etmədən İsa Həbibbəyliyinin özünə də aid etmək olar: **"Onun adı ədəbiyyatşünaslığın bir qolunun deyil, aşıq yaradıcılığının, klassik və müasir ədəbi irsin, ədəbiyyat nəzəriyyəsinin, tənqid və ədəbiyyatşünaslığın, ədəbi əlaqələr sahələrindən hər birinin mötəbər tədqiqatçıları arasında fəxrlə çəkilir. ...Onun gərgin zəhmət və dərin müşahidələrdən yoğrulmuş axtarışları ədəbiyyatşünaslıq elmimizi zənginləşdirdiyi kimi, öz yaradıcılığının da monumentallığını və elmi sanbalını artırmışdır".**

Haqqında danışdığımız kitabın ədəbiyyat nəzəriyyəsinə həsr edilmiş bölümündə də İsa Həbibbəylinin yenilik duyğusu, az öyrənilmiş sahələri araşdırmaq istəyi aydın görünür. "Ədəbiyyatın tərifi"ndən başlayaraq, sonet janrı, şerimizdə himn və marş, novellanın janr özəllikləri kimi tədqiqatdan çox vaxt kənarda qalan sahələr haqqında bir-birindən dəyərli yazıları onun nə qədər dərin və çoxsahəli elmi potensialının olduğunu bir daha nümayiş etdirir.

Eyni sözləri kitabın ədəbi əlaqələrə, elm xadimlərinə, tarix, incəsənət və mətbuat məsələlərinə həsr edilmiş bölmələri haqqında da demək olar.

Tanınmış ədəbiyyatşünas alimlərimiz Məmməd Cəfər, Abbas Zamanov, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Kamran Dadaşoğlu, Yaşar Qarayev, Nizami Cəfərov, Vaqif Yusifli, Azərbaycan elminin imkişafında xüsusi xidmətləri olan akademiklərdən Yusif Məmmədəliyev, Fərəməz Maqsudov, Zərifə Əliyeva, rəssam Tahir Salahov kitabda ona görə yer almışlar və onlardan bəzilərinin yaradıcılığına ona görə dəfələrlə qayıdılır ki, bu adlar həm sənət, həm vətəndaşlıq, həm də şəxsiyyət baxımından təkrarsız insanlardır və hər birinin əməyi Azərbaycanın mənəvi həyatında xüsusi bir mərhələ təşkil edir.

Bir ədəbiyyatşünas alim və tənqidçi kimi İsa heç vaxt müraciət etdiyi mövzunun kölgəsində qalmamışdır, həmişə yalnız o müəllifləri və mövzuları seçmişdir ki, bu əsasda öz sözünü demək imkanı olsun. Bütün böyük tənqidçi və ədəbiyyatşünaslar kimi İsa üçün də ədəbi tənqid və ədəbiyyatşünaslıq müstəqil fikir demək, ictimai düşüncənin üfüqlərini genişləndirmək, milli şüura yeni qida vermək vasitəsidir.

Bu mənada ömrünün ən yaxşı illərini romantik şerimizin inkişafına, Cəlil Məmmədquluzadə irsinin toplanıb araşdırılmasına sərf etməsi təsadüfi deyil.

İsa öz xarakterinə və şəxsiyyətinə uyğun olaraq həmişə işığa can atır; milləti millət edən böyük dəyərləri araşdırır və bu yolla işığımızın artmasına, ocağımızın gurlaşmasına xidmət edir. Bu proses həm də İsanın özünün də son dərəcə parlaq, işıqlı, aydın, səmimi, yorulmaz bir alim - insan əbrazını yaratmışdır və haqqında danışdığım kitab bu obrazı boya-boy göstərməkdədir.

Görkəmli alimin "Naxçıvan şəhərinin beş min il yaşı" yaxud, "Gəmiqaya dünyası: Nuş peyğəmbər, Naxçıan və gəmiqaya" adlı tarixə həsr olunmuş məqalələri də onun ədəbi araşdırmalarındakı başlıca xətti, yəni Azərbaycanı öyrənmək, öyrətmək və sevdirmək xəttini davam etdirir; onun elmi təfəkkürünün yeni qatlarını və imkanlarını açır.

İsa Həbibbəylinin "Ədəbi tarixi yaddaş və müasirlik" kitabının bir dəyəri və əhəmiyyəti də onun qapalı akademik mühitdən uzaq, canlı pedaqoji və yaradıcılıq mühitində, Bakıdan uzaq, amma milli fikrin ən üst təbəqəsi və tələbləri səviyyəsində yaranmasıdır.

İsanın yeni kitabı həm də bir portretlər qaleryasıdır. Burda elm və mədəniyyətimizin bir çox parlaq simalarının gözəl obrazlarını görürük. Müəllifin məharəti yığcam yazılarda öz qəhrəmanlarının yaradıcı və şəxsi xarakterlərini tam dolğunluğu ilə göstərə bilməsindədir.

Bu qaleryadakı portretləri fərqləndirən cəhət - İsa Həbibbəylinin qələminə məxsus bir səmimiyyətlə və Naxçıvan təbitəndən gəlmə dəqiq rəng ayrıcları ilə çəkilməsindədir. İsa öz portretlərini yaygın, qarışıq rənglərlə çəkməyib, dolaşıq, yaxşılığı-pisliyi bilinməyən fikirlərlə danışmağı xoşlamır. O öz qəhrəmanlarını dəqiq prinsiplərlə seçir: yaradıcılığının bədii dəyəri, milli ideallara xidməti və şəxsi keyfiyyəti - yəni sənətkarlıq dəyəri, vətəndaşlıq və sözlə əməlin uyğunluğu. Bu üç prinsip ətrafında sona qədər dərk olunmayan çox geniş bir dəyərlər şəbəkəsi mövcuddur. İsa onları da gözdən qaçırmır.

Biz İsa Həbibbəyli ilə ilk dəfə rastlaşanda o hələ yalnız şair idi. Şerləri, öz dediyi kimi, "Əsrlərin əfsanəvi dərəsindən gələn səsə" bənzəyirdi. Folklorumuzda mifik itkinin, ayrılığın səbəbkarı kimi qalmış Arpaçayın sahillərindən gəlmişdi. Burda, dağlar arasındakı Danzik kəndində doğulmuşdu və oxuduğu yazılarının biri də "Arpaçayı daşa bilməz" adlı mənsur poemasıydı. Təəssüf ki, sonralar Arpaçayı İsanın doğma kəndini də əlindən aldı, kənd Arpaçay dəryaçasının altında qaldı. Qəmli, əziyyətli uşaqlıq illəri, təbiətə bağlılıq, ailə, ocaq sevgisi, əsrləri adlayıb gələn böyük əxlaqi dəyərlərə, kökə, ənənəyə sədaqət, bu mühitdə kasıbçılıqla yaşayan insanların mənəvi zənginliyi o kənd haqqındakı xatirələrin əsas mövzusuydu. Bütün bunlar, eləcə də ədəbiyyatımız və milli hədəflərimiz barədə söhbətlər İsanın hələ gənclik illərindən öz gələcək həyat yolunu dəqiq müəyyənləşdirdiyini göstərirdi. Şeirlərindəki səmimiyyət, həyatilik, dəqiq və aydın ifadə tərzi, onun şeirə ciddi iddialarla gəldiyini göstərirdi. Ancaq elmi seçdi.

Cibimizdəki sonuncu qəpiklərimizi bölüşdürdüyümüz, bir çay süfrəsində saatlarla Azərbaycanın gələcəyinə yönəli arzularımızı çözələdiyimiz o uzaq günlərin inam və səmimiyyəti çətin illərin, uzaqlığın, rejim dəyişmələrinin, mübarizə ehtiraslarının içindən keçərək qorunub və böyüyüb.

İşinin-gücünün çoxluğuna, universitet rektoru kimi rəsmi vəzifəsinə, millət vəkili kimi tez-tez Bakıya gəlib-getməsinə baxmayaraq, qələm dostum yaradıcılıq həyatının ən coşqun və bəhrəli çağını yaşayır.

İsa Həbibbəyli nə qazanıbsa alın təri ilə, gecə-gündüc bilmədən çalışması ilə, halal əməyi ilə qazanıb. Onun yeni kitabı təkcə ədəbi tənqid və ədəbiyyatşünaslıq hadisəsi deyil, bu kitabı həm də çağdaş Azərbaycan ictimai fikrinin genişliyini, əhatə dairəsini, əsas hədəf və istiqamətlərini göstərən dəyərli bir yaradıcılıq qələbəsi kimi qiymətləndirməliyik.